Ədalət.- 2021.- 9 yanvar. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Şəhid Mirzəyev Elyar Cəlal oğlu*



Elyar Füzuli, Cəbrayıl və Hadrutun işğalçılardan azad olunmasında igidlik göstərmiş və döyüşlərin birində snayper gülləsinə tuş gələrək Şəhidlik zirvəsinə ucalmışdır.

Evin tək oğlu idi. Vətənə əmanət iki övladı var. Allah sənə rəhmət eləsin, igid...

*Murov istiqamətində Şəhidlik zirvəsinə yüksəlib*



Şəhidimiz Müddətdən Artıq Həqiqi Xidmət Hərbi Qulluqçusu Məmmədov İsa Nazim oğlu.

Qəhrəmanımız, Binə qəsəbəsində anadan olub.

Şəhidimizin Anası və Atası əvvəl vəfat edib. Evin tək uşağı idi.Döyüşlər başlayandan bir neçə gün sonra ondan xəbər almaq mümkün olmayıb. Elə ilk günlərdən adı itkinlər siyahısına düşmüşdü.

27 sentyabr tarixində başlayan Vətən müharibəsinin ilk günlərindən Murov istiqamətində Şəhidlik zirvəsinə yüksəlib.

*Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub*



"Cəbrayılın azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Araz Əliyev.

21.06.1984-cü ildə Beyləqan rayonu Kəbirli kəndində anadan olan Əliyev Araz Aydın oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 08.10..2020-ci il tarixdə Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimizin 12 yaşlı qızı Günəş və 8 yaşlı qızı Şəfəq Vətənə əmanət qalıb.

Əmanətin əmanətimizdir.

*Unutmayaq, unutdurmayaq!*



"Cəbrayılın azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Saleh Əsədov.

29.02.1984-cü ildə Beyləqan rayonu Kəbirli kəndində anadan olan Əsədov Saleh Səməd oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 08.10..2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimizin 12 yaşlı oğlu Səməd və 9 yaşlı oğlu Səid Vətənə əmanət qalıb.

Əmanətin əmanətimizdir.